AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

FƏLSƏFƏ KAFEDRASI

MİF – B05

“CƏMİYYƏTİN MADDİ HƏYATI”

Kursu üzrə

(magistratura)

İxtisas – 060202 – Fəlsəfə

PROQRAM

BAKI – 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

FƏLSƏFƏ KAFEDRASI

MİF – B05



WPS Office ile Düzenle

“CƏMİYYƏTİN MADDİ HƏYATI”

Kursu üzrə

(magistratura)

İxtisas – 060202 – Fəlsəfə

PROQRAM

Bakı Dövlət Universiteti rektorunun

17.02.2020-ci il tarixli R/25 saylı əmri

ilə nəşr hüququ verilmişdir

BAKI – 2020


Tərtib edən: fəlsəfə elmləri doktoru,

Professor Zeynəddin Camal oğlu Hacıyev

Elmi redaktor: fəlsəfə üzrə fəlsəfə doktoru,

Dosent Kəmalə Həsən qızı Pənahova

Rəyçilər: fəlsəfə üzrə fəlsəfə doktoru,

Nəzakət İsfəndiyar qızı Kərimova

fəlsəfə üzrə fəlsəfə doktoru,

Zümrüd Kəraməddin qızı Beydulova




WPS Office ile Düzenle

## İzahat vərəqi

Cəmiyyətin sosial-fəlsəfi nəzəri təhlilinin aparılmasında onun maddi istehsal sferasının dərindən araşdırılması müstəsna əhəmiyyətə malikdir. Qeyd olunan problemin dərk olunması və həllində sözügedən kursun rolu həm də bundadır ki, onun müasir tələblər baxımından öyrənilməsi, iqtisadi fəaliyyətin cəmiyyətdə rolunu mütləqləşdirən təsəvvürlərin əsassız olduğunu sübut etməklə yanaşı, iqtisadi sferanın ümumi sosial həyatda  və inkişafda mühüm yer tutduğunu vurğulayır, ona lazımi diqqət yetirməyin vacibliyini əsaslandırır.

**Fənnin mənimsənilməsi məqsədləri.** Bu fənnin mənimsənilməsi nəticəsində magistrlərdə aşağıdakı istiqamətlər üzrə biliklər, bacarıq və qabiliyyətlərin formalaşdırılması məqsədi güdülür.

- Cəmiyyətin maddi həyatını öyrənməyin əhəmiyyəti, metodoloji əsasları, iqtisadi fəlsəfənin predmeti, yaranması və təkamülü, iqtisadi fəaliyyətə sosial-fələfi yanaşmanın əsasları haqqında biliklər;
- Əməyin fəlsəfəsi, onun sosial təbiəti, əmək subyektinin inkişafı, əməkdə zərurət və azadlıq, texnikanın iqtisadi fəlsəfi təhlili;
- Bazar iqtisadiyyatının  mahiyyəti, yaratdığı sosial-iqtisadi dəyişikliklər, Azərbaycanda  bazar iqtisadi münasibətlərinin özünəməxsusluqları və tənzimlənməsi ilə bağlı problemlərin həlli.

### Fənnin digər fənlər sistemində yeri

Fənn, sosial fəlsəfə üzrə ixtisaslaşan magistr pilləsində tədris olunan təməl fənlərə daxildir. O, həm humanitar, sosial və iqtisadi bloklara aid fənnlər ilə, həm də bilavasitə peşə bloku fənnləri ilə sıx bağlıdır. Buna görə də onun uğurlu tədrisi



WPS Office ile Düzenle

yuxarıda qeyd olunan fənlərin öyrənilməsi nəticəsində əldə edilmiş biliklərə və bacarıqlara söykənir.

**Fənnin mənimsənilməsinin nəticələri**

Fənnin öyrənilməsi prosesində magistrlər, cəmiyyətin maddi istehsal (sosial-iqtisadi) sferasına aid lazımi informasiyanı müstəqil tapmağı və təhlil etməyi, bu sahəyə aid elmi problemləri düzgün ifadə etməyi bacarmalı, müvafiq metodların bütün spektrindən istifadə etməyə alınmış nəticələri düzgün izah etməyə və müstəqil elmi araşdırmalar aparmağa yiyələnməlidir.

"Cəmiyyətin maddi istehsal sferası" fənninin mənimsənilməsi nəticəsində magistrlər əsas tədris proqramını əhatə edən biliklər, bacarıqlar və təcrübə əldə edirlər. Fənnin mənimsənilməsi nəticəsində magistrlər aşağıdakıları bacarmalıdır: cəmiyyətin bütöv sistem kimi araşdırılmasında maddi-istehsal sferasını öyrənməyin böyük rolunu anlamağı, iqtisadi fəaliyyətdə tələbatların və mənafelərin hərəkətverici qüvvə olduğunu başa düşməyi; əməyin kompleks xarakteri, onun subyektinin inkişafı ilə bağlı problemləri, iqtisadi fəaliyyətdə texnikanın yeri və rolunu təhlil edə bilməlidir. Deyilənlərdən əlavə magistrlər Azərbaycanda bazar iqtisadi münasibətlərinin mexanizmi, özünəməxsus cəhətləri və məqsədyönlü idarə olunması problemlərini bilməlidir.

Magistr pilləsində fənnin mənimsənilməsi prosesində aşağıdakı elmi göstəricilər inkişaf edir:

1. Universal (ümummədəni)

- Düşüncə mədəniyyəti: informasiyanı qavramaq, ümumiləşdirmək, təhlil etmək, qarşıya düzgün məqsəd qoymaq və ona nail olmağın səmərəli yollarını seçib, istifadə etmək məharəti.

2. Professional (peşə)

- Maddi istehsal sferasının öyrənilməsində cəmiyyətin milli regional spesifikliyini, ümumi sosiomədəni inkişafı nəzərdə tutan elmi və sosial texnologiyaların reallaşdırılmasına hazır olmaq.

**Modulun (fənnin) strukturu və məzmunu.**

Bu fənn üzrə cəmi 45 saat, o cümlədən 30 mühazirə və 15 seminar məşğələsi keçirilməsi nəzərdə tutulur. Sosial fəlsəfə üzrə magistrlərin hazırlanmasında bu fənn zəruri yer tutur. Onlar



WPS Office ile Düzenle

bu fənnin nəzəriyyəsi və praktikası haqqında biliklər əldə etməklə sosial həyatda baş verən bütün hadisə və prosesləri təhlil etmək və proqnozlaşdırmaq işində lazım olan vərdişləri qazana bilirlər.

Tədris kursunda maddi istehsal sferasının bütün əsas tərəfləri şərh olunur. Onlara dair elmi ədəbiyyat siyahısı verilir.

**Fənnin tədrisi zamanı magistr bilməlidir:**

- Maddi həyatın ümumi cəmiyyət sistemində tutduğu yeri və rolu;
- Cəmiyyətin maddi həyatını öyrənməyin metodologiyasını;
- Iqtisadi fəlsəfənin predmetini və əhatə etdiyi problemləri;
- Iqtisadi fəaliyyətə sosial fəlsəfi yanaşmanın əsaslarını;
- Əməyin mahiyyətini və sosial təbiətini;
- Maddi istehsal sferasında texnikanın yerini və rolunu;
- Bazar iqtisadiyatının mahiyyətini və törətdiyi sosial nəticələri.

**Fənnin tədrisi zamanı magistr bacarmalıdır:**

- Maddi istehsal sferasını spesifikliyini açmağı;
- Iqtisadiyyatın fəlsəfi təhlilinin başlıca tərəflərini bir-birindən fərqləndirməyi;
- Əmək prosesinin kompleks sosial təbiətini anlamağı;
- Əmək subyektinin inkişafının əsas amillərini seçib ayırmağı.
- Iqtisadi həyatda texnikanın müsbət rolunu və nöqsanlı tərəflərini fərqləndirməyi;
- Bazar iqtisadi mexanizminin mahiyyətini və əsas cəhətlərini açmağı;
- Azərbaycanda bazar iqtisadiyyatının xüsusiyyətlərini fəlsəfi mənalandırmağı.



WPS Office ile Düzenle

**“Cəmiyyətin maddi həyatı” fənni üzrə dərs saatlarının bölgüsü**

| № | Mövzular | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1 | Maddi həyatı öyrənməyin əhəmiyyəti və metodologiyası. | 2 saat | 2 saat |
| 2 | İqtisadi fəlsəfənin predmeti və əhatə etdiyi problemlər. | 2 saat | 2 saat |
| 3 | İqtisadi fəlsəfi biliklərin yaranması və təkamülü. | 2 saat | |
| 4 | İqtisadi fəaliyyətə sosial fəlsəfi yanaşmanın əsasları | 4 saat | 2 saat |
| 5 | Əməyin mahiyyəti və sosial təbiəti. | 4 saat | 2 saat |
| 6 | Əmək subyektinin inkişafı problemi. | 2 saat | |
| 7 | İctimai əməkdə zərurət və azadlıq. | 2 saat | 2 saat |
| 8 | Texnikanın iqtisadi-fəlsəfi təhlili. | 4 saat | 2 saat |
| 9 | Bazar iqtisadiyyatının mahiyyəti və əsas cəhətləri. | 2 saat | |
| 10 | Bazar iqtisadiyyatı və mülkiyyətdə dəyişikliklər | 4 saat | 2 saat |
| 11 | İqtisadi idarəçiliyin fəlsəfi mahiyyəti və bazar iqtisadiyyatının tənzimlənməsi. | 2 saat | 1 saat |
| Cəmi | | 30 saat | 15 saat |

**Birinci mövzu: Maddi həyatı öyrənməyin əhəmiyyəti və metodologiyası**

Maddi istehsal ictimai həyatın özünəməxsus sferası kimi. Cəmiyyətin fəaliyyəti və inkişafının maddi həyatdan ayrılmazlığı. Maddi istehsalın cəmiyyət üçün həyati əhəmiyyəti. Maddi nemətlər yaradılması iqtisadi fəaliyyətin başlıca nəticəsidir. Ictimai tələbatların və mənafelərin ödənilməsi iqtisadi fəaliyyətin əsas məqsədi və hərəkətverici qüvvəsi kimi.

Cəmiyyət həyatında maddi istehsalın rolunu şişirtməyin yolverilməzliyi. Maddi həyatın cəmiyyət üçün əhəmiyyəti. Maddi



WPS Office ile Düzenle

nemətlər yaratmaq cəmiyyətin zəruri tərəfi kimi. Istehsal üsulunun, əmək bölgüsünün və mülkiyyət münasibətlərinin sosial sferaya təsiri. Maddi həyat göstəricilərinin siyasi sferada təzahürü. İqtisadi istehsal cəmiyyətin mənəvi inkişafının maddi müqəddəm şərti kimi [1], [2], [2].

**İkinci mövzu: İqtisadi fəlsəfənin predmeti və əhatə etdiyi problemlər.**

İqtisadi fəlsəfə, iqtisadi nəzəriyyə ilə sosial fəlsəfənin qovşağında yaranan yeni elm sahəsi kimi. Iqtisadi fəlsəfənin predmeti maddi həyatın əsas tərəflərinin fəlsəfi-iqtisadi refleksiyasıdır. Iqtisadi fəlsəfə, təkcə (maddi həyat) ilə ümuminin (bütöv bir tam kimi götürülən cəmiyyətin) ayrılmaz vəhdətini əks etdirir. Iqtisadi fəlsəfənin metodoloji əsaslarının işlənib, hazırlanmasında sosial fəlsəfə nəzəriyyəsinin rolu. Postsovet məkanında iqtisadiyyata yanaşmağın fəlsəfi metodologiyasının zəruriliyinin artması.

İqtisadi fəlsəfənin əhatə etdiyi əsas problemlər. Iqtisadi həyat ilə ümumilikdə cəmiyyətin münasibətlərinin nəzəri təhlili. Iqtisadi həyatın inkişafı mənbələrinə sosial mövqedən yanaşılması. Maddi həyatda obyektiv və subyektiv tərəflərin nisbəti. İqtisadi şüurun (təfəkkürün) mahiyyəti və iqtisadi həyata təsiri istiqamətləri. Iqtisadi maraqlar ilə cəmiyyətin ümumi maraqlarının münasibəti. Fərdlərin və sosial qrupların iqtisadi maraqlarının qarşılıqlı təsiri. İqtisadi həyat və mənəvi inkişaf. Iqtisadi proseslərin şüurlu, elmi idarə olunması. Iqtisadi islahatlar və maddi həyatın inkişafı [1], [2], [2].

**Üçüncü mövzu: İqtisadi-fəlsəfi biliklərin yaranması və təkamülü.**

İqtisadi elmlərin nəzəri status kəsb etməsi və fəlsəfi təsəvvürlərin yaranması. Klassik iqtisadi təlimlərdə fəlsəfi məsələlər. Marinalizm mərhələsində fəlsəfi fikir. Keynsiançılıq və gözlənilən ümidlərin idraki status alması. Ehtimalı iqtisadi (faydalılıq və oyun) nəzəriyyəsi və fəlsəfə.

XVII əsrin fəlsəfi təlimlərində (Hobbs və Lokk) iqtisadiyyat məsələləri. Maarifçiklik fəlsəfəsi və iqtisadi nəzəriyyə (Russo, Volter, Helvetsi, Holbax). Klassik alman fəlsəfəsində iqtisadi problemlər. Hegel azadlıq, mülkiyyət və özgələşmə haqqında.

İqtisadi-fəlsəfi təlimlərin inkişafının marksizm mərhələsi. Iqtisadi və fəlsəfi problemlərin vəhdətdə götürülməsi. Izafi dəyərin mənbəyinin istismar olduğunun kəşf edilməsi. Marks tərəfindən kapitalın inkişafının əsas formalarının (pul, istehsal


WPS Office ile Düzenle

və əmtəə kapitalı) təhlili. Kapitalistlərin qrupları ilə torpaq sahibləri münasibətləri araşdırmağın fəlsəfi aspekti. Marksizm fəlsəfəsində iqtisadi inkişafın ümumi qanunauyğunluqlarının aşkar edilməsi. Marksizm iqtisadi təliminin sosial-fəlsəfi aspektinin məhdudluqları [1], [2], [2].

**Dördüncü mövzu: İqtisadi fəaliyyətə sosial-fəlsəfi yanaşmanın əsasları.**

Maddi həyat ilə digər ictimai sferaların qarşılıqlı təsiri. Bu prosesdə cəmiyyətin ümumi nəzəriyyəsi olan sosial fəlsəfəninn rolu. Iqtisadi elmlərlə sosial fəlsəfənin dərketmə obyektlərinin yaxınlığı və təması. Maddi nemətlər istehsalı prosesi ilə ümumilikdə cəmiyyətin inkişafı arasında vəhdətin zəruriliyi.

Iqtisadi fəaliyyət ilə sosial, siyasi və mənəvi həyatın vəhdəti.

Iqtisadi fəaliyyətdə obyektiv və subyektiv amillərin qarşılıqlı münasibətlərinin fəlsəfi səpkisi. Iqtisadi qanunların spesifikliyi və burada təsadüflərin rolu.

Iqtisadi tələbatların mahiyyəti və maddi istehsalda rolu. Iqtisadi tələbatların və istehsalın inkişafının sosial səpkisi. Tələbatların ictimai və fərdi formaları; Sağlam tələbatların formalaşdırılması problemi. Iqtisadi tələbatların, istehsalın və istehlakın qarşılıqlı münasibəti. Tarixi prosesdə tələbatların artması qanunu.

Istehsal üsulu anlayışı. Məhsuldar qüvvələri və istehsal münasibətlərinin fəlsəfi aspekti. Iqtisadi mənafelər anlayışı. Iqtisadi mənafelərin sosial müxtəlifliliyi. Cəmiyyətdə iqtisadi mənafelərin düzgün əlaqələndirilməsi zəruriliyi. Onun sosial və ümumi inkişafda rolu.

Iqtisadi şüur anlayışının mahiyyəti və strukturu. Iqtisadi psixologiya və iqtisadi nəzəriyyə. Iqtisadi psixologiyada maddi həyat proseslərinin bilavasitə əks olunması və qiymətləndirici münasibətlərin ifadəsi. Iqtisadi nəzəriyyə (iqtisadi təfəkkür) iqtisadi şüurun yüksək səviyyəsi kimi. Bazar münasibətləri şəraitində iqtisadi həyata şüurlu təsir göstərilməsinin zəruriliyi. Iqtisadi islahatlar və iqtisadi şüur [1], [2], [2].

**Beşinci mövzu: Əməyin mahiyyəti və sosial təbiəti.**

Cəmiyyətin maddi həyatında əmək fəaliyyətinin həlledici yeri. Əməyin mahiyyətinə müxtəlif yanaşmalar. Əməyin geniş mənada anlaşılması. Əməyin yaradıcı – kulturoloji səpkisi. Əməyin dəyişdirici təbiəti. Əmək və praktika. Əməkçi anlayışının sosial-iqtisadi və yaradıcı – kulturoloji konsepsiyaları. Əmək



WPS Office ile Düzenle

maddi və mənəvi nemətlər yaratmağa yönələn məqsədyönlü fəaliyyət kimi. Əməyin məzmununun çoxsəpkililiyi.

Əməyin strukturunda canlı əməyin, əmək vasitələrinin və əmək predmetinin vəhdəti. “Əmək və məhsuldar qüvvələr” anlayışlarının ümumi və spesifik cəhətləri. Əmək fəaliyyətinin istehsal münasibətlərindən ayrılmazlığı. Əmək və mülkiyyət münasibətləri. Maddi həyatda bölgü və mübadilə münasibətlərinin rolu. Təbiət – cəmiyyət münasibətlərində ahəngdarlıq yaradılması, səmərəli əmək fəaliyyətinin zəruri şərti kimi.

Əmək fəaliyyətinin kompleks təbiəti. Əməkdə maddi və ideal səpkilərin qarşılıqlı vəhdəti və bir-birini zənginləşdirməsi.

Əməyin sosial mahiyyəti. Bu prosesdə sosial-sinfi münasibətlərin və peşə bölgüsünün yeri. Əməkdə milli-etnik səpkinin rolunun artması. Əmək və siyasi idarəçilik. Əmək və cəmiyyətin ictimai şüuru [1], [2], [2].

**Altıncı mövzu: Əmək subyektinin inkişafı problemi.**

Əməyin iqtisadi-fəlsəfi təhlilində onun subyektinin inkişafı amillərinin müəyyənləşdirilməsinin mühüm rolu. Əməyin subyekti anlayışı. Əməyi reallaşdıran aktiv insan onun subyekti kimi. Əmək subyektini düzgün müəyyənləşdirməyin əhəmiyyəti. Subyekt əməyi geniş mənada, cəmiyyət miqyasında səciyyələndirir. İnsanın öz əməyinə çoxtərəfli yanaşması (intellektual, emosional) əmək subyektinin özünü şəxsiyyət kimi təsdiq etməsi üsuludur.

Əmək subyektinin inkişafı amilləri. Bu prosesdə istehsal üsulu və onun iki tərəfinin (məhsuldar qüvvələr və istehsal münasibətləri) həlledici yeri. Məhsuldar qüvvələrin məhdud və geniş anlamı. Əmək subyektinin inkişafında məhsuldar qüvvələrin şəxsi amillərinin əsas rolu. İstehsal münasibətləri əmək subyektinin inkişafının zəruri şərti kimi. Əməyin motivasiyasının və subyektin maraqlarının ödənilməsinin onlardan asılılığı. Əmək subyektinin inkişafında xüsusi mülkiyyətin əhəmiyyəti [1], [2], [2].

**Yeddinci mövzu: İctimai əməkdə zərurət və azadlıq.**

Əmək fəaliyyətində zərurət anlayışı, onun müxtəlif tələbat növləri ilə əlaqəliliyi. Maddi tələbatlar əməyin daxili zərurəti kimi.

Əməyin bütün dövrlərdə ictimai həyatın əsasında durması. Əmək insanların mövcudluğu şərti, təbii zərurətidir. Əməyi şərtləndirən defermenantların ümumsosioloji xarakteri. Əmək prosesində zərurətin ifadə formalarının müxtəlifliyi.



WPS Office ile Düzenle

Bilavasitə və dolayı formaların spesifikliyi. Əməkdə zərurətin ictimai və fərdi növlərinin özünəməxsusluğu.

Əmək prosesində zərurət və təsadüf münasibətləri. Əmək fəaliyyətində zərurətin və onun konkret tarixi formalarının nisbəti.

Əməkdə zərurət və azadlığın əlaqəsi. Əməyin zəruriliyi cəmiyyətin varlığının azadlığı kimi. Əmək fəaliyyətində insanların təbiətlə münasibətlərində azadlıq səviyyəsinin əmək fəaliyyətinin cəmiyyətin öz daxilində azadlığın əsası olması.

Əmək anlayışının sinfi – iqtisadi konsepsiyası, onun meyarları. Əməyin yaradıcı – kulturoloji anlamının burada zərurət ilə azadlığın münasibətlərinin izahında üstünlükləri [1], [2], [2].

**Səkkizinci mözu: Texnikanın iqtisadi fəlsəfi təhlili.**

Texnika fəlsəfəsinin mahiyyəti. Əmək ilə texnikanın ayrılmazlığı. Texnika sözün geniş mənasında mədəniyyətin nailiyyəti kimi. Texnika əmək alətləri və vasitələri sistemi kimi.

Texnika və texnologiyanın bağlılığı. Texnologiyanın ənənəvi və müasir anlamı. Müasir texnologiyanın səciyyəvi cəhətləri.

Texnikanın yaranması və inkişafının əsas mərhələləri. Texnikanın müasir mərhələsinin səciyyəvi cəhətləri. Müasir texnikanın əməyə təsirinin əsas istiqamətləri.

Müasir texnika fəlsəfəsinin əhatə etdiyi problemlər. Texniki biliyin iqtisadi sfera ilə bağlılığı. Texniki bilikdə insanın fəaliyyətinin modelləşdirilməsi. Texniki biliyin inkişafının əsas mərhələləri. Müasir texniki biliyin səciyyəvi cəhətləri.

Müasir texnikanın antropoloji səpkisinin rolunun artması. Texniki vasitələr və müasir sivilizasiyanın taleyi [1], [2], [2].

**Doqquzuncu mövzu: Bazar iqtisadi mexanizminin mahiyyəti və əsas cəhətləri.**

Bazar iqtisadi mexanizminin formalaşması və fəaliyyəti obyektiv qanunauyğunluqdur. Bazar, iqtisadi tələbatları yerinə yetirməyin özünütənzimləyici forması kimi.

Bazar iqtisadi mexanizminin səciyyəvi cəhətləri. Tələb və təklif arasında münasibətlərin nizama salınması. Bazar istehsalçılar (satıcılar) və istehlakçılar (alıcılar) arasında əlaqələr birliyi kimi. Qiymətlər və onların dəyişilməsi bazarın başlıca dayağıdır.

Bazar mexanizminin funksiyaları. Bazar əlverişli



WPS Office ile Düzenle

sövdələşmələr meydanı kimi. Bazar iqtisadiyyatının əsas dayaqları. Pul və onun funksiyaları. Bazar iqtisadiyyatında dəyərin rolu. Kapital bazar iqtisadiyyatının atributu kimi. Rəqabətin mahiyyəti və əsas formaları. Bazar iqtisadiyyatında alqı – satqı münasibətlərinin müstəqil xarakteri. Bazar iqtisadiyyatı sahibkarlığa əsaslanan təsərrüfatçılıq sistemi kimi.

Bazar iqtisadi mexanizminin məhdudluqları və nöqsanları. Bazarın sosial və etik meyarlara biganəliyi. Müstəqil Azərbaycanda bazar iqtisadiyyatının mahiyyəti və formalaşması xüsusiyyətləri [1], [2], [2].

**Onuncu mövzu: Bazar iqtisadiyyatı və mülkiyyətdə dəyişikliklər.**

Mülkiyyət fenomeninin fəlsəfi səpkisi. Mülkiyyətin subyekti və obyekti. Mülkiyyətdən istifadə, ona sahiblik edilməsi və üzərində sərəncam verilməsi. İnsanları mülkiyyət əldə etməyə sövq edən amillər. Mülkiyyətə malik olmağın yolları.

Əməyə mülkiyyətin mənbəyi kimi yanaşmanın mahiyyəti və üstünlükləri.

Bazar iqtisadiyyatının mülkiyyətdə yaratdığı əsas dəyişikliklər. Mülkiyyət formalarının fəaliyyətinə geniş meydan verilməsi. Mülkiyyət formalarının müxtəlifliyi məsələsi. Şəxsi mülkiyyət. Xüsusi mülkiyyət formalarının rolunun artması. Mülkiyyətin kooperativ forması və onun üstünlükləri. Dövlət mülkiyyətinin mahiyyəti və əhatə dairəsi. Bazar şəraitində bələdiyyə mülkiyyətinin yeri və rolu.

Sovet dövrü mülkiyyətinin əsas nöqsanları. Partiya – dövlət mülkiyyətinin mahiyyəti.

Azərbaycanda bazar iqtisadiyyatı şəraitində mülkiyyət münasibətlərində baş verən əsaslı yeniləşmələr. Özəlləşdirmə proqramının törətdiyi dəyişikliklər. Sahibkarlığın inkişafına geniş meydan verilməsi. Sosial qrupların spesifik mülkiyyət maraqlarının qorunması və əlaqələndirilməsi [1], [2], [2].

**On birinci mövzu: İqtisadi idarəçiliyin fəlsəfi mahiyyəti və bazar iqtisadiyyatının tənzimlənməsi.**

İqtisadi fəaliyyətin idarə olunmasının zəruriliyi, onu şərtləndirən səbəblər. İqtisadi fəaliyyətin mürəkkəb və çoxtərəfli xarakteri. İdarəetmə mexanizminin şüurlu tipi və onun üstünlükləri. İqtisadi idarəçilikdə informasiya və təşkilati tərəflərin rolu. Qərarların işlənib hazırlanması və icrası iqtisadi idarəetmənin zəruri tərəfi kimi. İqtisadi idarəçiliyin yumşaq və sərt formaları. İdarəçiliyin obyekti və subyekti.



WPS Office ile Düzenle

Bazar iqtisadiyyatı şəraitində idarəçiliyin yeni cəhətləri. Dövlətin iqtisadiyyata müdaxilə edib, etməməsi ətrafında mübahisələr. Dövlətin bazar iqtisadiyyatına tənzimləyici təsirinin yolları və vasitələri. Dövlətin hüquqi institutlarının idarəçilikdə rolu. Dövlətin yeritdiyi maliyyə-kredit sisteminin idarəçilikdə əhəmiyyəti. Dövlət tərəfindən bazar mexanizminin üstünlüklərindən səmərəli istifadə olunması. Bazarın neqativ nəticələrinin aradan qaldırılmasında dövlətin rolu. Sosial yönümlü bazar iqtisadiyyatının formalaşmasında dövlətin yeri. Dövlətin bazara tənzimləyici təsirinin hədləri problemi [1], [2], [2].

## Seminar məşğələləri

**Birinci mövzu: Maddi həyatı öyrənməyin əhəmiyyəti və metodologiyası (2 saat).**

1. Maddi istehsal ictimai həyatın özünəməxsus sferası kimi. Maddi istehsalın cəmiyyət üçün əhəmiyyəti.
2. Maddi həyatı anlamağın marksist metodologiyasının üstünlükləri və məhdud cəhətləri.
3. Maddi həyat ilə digər ictimai sferaların münasibəti.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.



WPS Office ile Düzenle

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**İkinci mövzu: İqtisadi fəlsəfənin predmeti və əhatə etdiyi problemlər (2 saat).**

1. İqtisadi fəlsəfənin predmeti.
2. İqtisadi fəlsəfənin əhatə etdiyi problemlər.
3. İqtisadi şüurun (təfəkkürün) mahiyyəti və iqtisadi həyata təsiri istiqamətləri.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**Üçüncü mövzu: İqtisadi fəaliyyətə sosial-fəlsəfi yanaşmanın əsasları (2 saat).**

1. İqtisadi fəlsəfi biliklərin yaranması və təkamülü.
2. Maddi istehsal prosesinin sosial səpkisi.
3. İqtisadi fəaliyyət ilə digər fəaliyyət növlərinin münasibəti.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan



WPS Office ile Düzenle

Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**Dördüncü mövzu: Əməyin mahiyyəti və sosial təbiəti (2 saat).**

1. Cəmiyyətin maddi həyatında əməyin rolu.
2. Əmək fəaliyyətinin kompleks xarakteri.
3. Əməyin sosial mahiyyəti.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**Beşinci mövzu: İctimai əməkdə zərurət və azadlıq (2 saat).**

1. Əmək subyektinin inkişafı problemi.
2. Əmək prosesində zərurətin mahiyyəti və ifadə formaları.
3. Əməkdə zərurət ilə azadlığın münasibəti.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.



WPS Office ile Düzenle

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**Altıncı mövzu: Texnikanın iqtisadi-fəlsəfi təhlili (2 saat).**

1. Texnika fəlsəfəsinin mahiyyəti.
2. Texnikanın yaranması və inkişafının əsas mərhələləri.
3. Texnika və texnologiyanın müasir anlamı. Texnikanın iqtisadi və ictimai nəticələrinə müxtəlif yanaşmalar.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

**Yeddinci mövzu: Bazar iqtisadiyyatının mahiyyəti və əsas cəhətləri (3 saat).**

1. Bazar iqtisadiyyatının əsasları.
2. Bazar iqtisadiyyatı şəraitində mülkiyyət
3. İqtisadi idarəçiliyin fəlsəfi mahiyyəti və bazar iqtisadiyyatının tənzimlənməsi.

**Ədəbiyyat**

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.



WPS Office ile Düzenle

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриенко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.

## Istifadə edilmiş ədəbiyyat

1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2017.

2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan Evi, 2012.

3. İqtisadiyyat. Iqtisadiyyat Universiteti. Bakı, 2010.

4. Алексеев П.В. Социальная философия. М., Проспект, 2005.

5. Барулин В.С. Социальная философия. М., 2002.

6. Кизилева Н.А. Философия экономики. М., Наука, 2007.

7. Философия./ Под. Ред. В.Н. Лавриненко/ М. ЮНИТИ, 1998.

8. Самсин А.И. Основы философии экономики. М., Наука, 2003.

9. Спиркин А.Г. Философия. Учебник для вузов. М., Гардарики, 2000.



WPS Office ile Düzenle